

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 154 (23.316)

21 avqust 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2019-cu ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2019-cu ilin yanvar-iyul aylarında 1 milyard 545 milyon 776 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3382,4 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 636 milyon 155 min 100 manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 587 milyon 447 min 300 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 566 milyon 5 min 700 manatı və ya 96,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Bəhs olunan dövrdə 244 milyon 713 min 500 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 13348,1 ton, süd istehsalı 60358,4 ton olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı isə 1,3 faiz artmışdır.

* * *

2019-cu ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 31 milyon 205 min 500 manat olmuşdur, bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 25 milyon 213 min 300 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,3 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 64 milyon 55 min 100 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,1 dəfə çoxdur. Verilmiş kreditlərin 6 milyon 576 min manatı və yaxud 10,3 faizi qısamüddətli, 57 milyon 479 min 100 manatı və yaxud 89,7 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 avqust 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 82307-yə çatmışdır ki, bunun da 72821-i və ya 88,5 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-iyul aylarında açılmış 15987 bank hesabının 15907-si aktiv hesablar olmuşdur. Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 avqust 2019-cu il tarixə 1276-ya çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-iyul aylarında 253 milyon 361 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 221 milyon 587 min 800 ABŞ dolları təşkil etmiş, 189 milyon 814 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2019-cu ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 449,3 manat təşkil etmişdir. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz çoxdur.

* * *

1 iyul 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3286 nəfər artaraq 457,6 min nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Sağlamlıq imkanları məhdud şəxslərə qulluq edənlər üçün Prezident təqaüdünün ödənilməsinə başlanılıb

Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə vətəndaşlara ödənilən təqaüd və sosial müavinətlərin məbləğləri artırılır, yeni təqaüdlər təsis edilir. "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" ölkə başçısının 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə cari ilin aprel ayından etibarən sosial müavinətlər və təqaüdlərin məbləği artırılıb. İnsanların güzəranının daha da yaxşılaşmasına xidmət edən və əhali arasında böyük razılıqla qarşılanan bu artım muxtar respublikamızda yaşayan sosial qayğıya ehtiyacı olan şəxsləri də sevindirib.

Qeyd edək ki, sosial müavinətlərin artımı ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanına əsasən müvafiq kateqoriyadan olan şəxslərə, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

Artıq muxtar respublikada sözügedən təqaüdün ödənilməsinə başlanılıb. Əlavə edək ki, aprel ayının ilk günündən hesablanmaqla ödənilən Prezident təqaüdü bu günədək muxtar respublikada 1642 nəfər sağlamlıq imkanları məhdud şəxsə qulluq edən vətəndaşı əhatə edib. Təbii ki, həyata keçirilən bütün bu tədbirlər əhalinin sosial müdafiəsinə göstərilən dövlət qayğısının növbəti təzahürüdür.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Təbii qazdan səmərəli istifadə üçün məqsədyönlü tədbirlər görülməsi diqqət mərkəzindədir

Sədərək Rayon Qaz İstismar İdarəsindən aldığımız məlumata görə, 1 avqust 2019-cu il tarixə rayon üzrə təbii qaz istehlakçılarının ümumi sayı 2365 olub. Bunun 2289-u əhali, 76-sı qeyri-əhali abonentləridir. Bəhs olunan dövrdə Qaz İstismar İdarəsinə daxil olan müraciətlərə əsasən 62 yeni qaz çəkilişi olub. 78 sayğaca mühafizə qutusu quraşdırılıb. İstismarda olan daşıyıcı, paylayıcı qaz kəmərlərinə və onların üzərində olan kranlara, siyirtmələrə, qaztənzimləyiciyə, qazpaylayıcı şkaflara texniki baxış keçirilib, aşkar edilən nöqsanların aradan qaldırılması ilə bağlı tədbirlər görülüb. Qazın texnoloji rejimə uyğun nəql olunmasını təmin etmək də diqqətdə saxlanılıb.

Məlumatda bildirilir ki, qaz itkisi olan istiqamətlər müəyyən edilib, onları yaradan səbəblər müəyyənləşdirilib, sızmalar bərpa olunub. Bəhs olunan dövr ərzində sayğaca müdaxilənin qarşısının alınması məqsədilə intensiv reydlər keçirilərək heç bir müdaxilə faktı aşkarlanmayıb.

Qazdan təhlükəsiz istifadə qaydaları ilə bağlı kütləvi informasiya vasitələrindən istifadə etməklə maarifləndirmə və nəzarətçilər tərəfindən əhali arasında izahat işi aparılmasına ciddi önəm verilir.

Payız-qış mövsümünə keçidlə əlaqədar qaz təchizatı sisteminə texniki baxışın keçirilməsi, mövcud nasazlıqların vaxtında aşkar edilərək aradan qaldırılması işləri görülür, siyirtmələr yağlanır, filtrlər təmizlənir. Nizamlama işləri görülərək qaz nəqlinin normal təzyiqdə verilməsi işi nəzarətə götürülüb. Odlu işlərin aparılması zamanı və işçilərin digər qaz təhlükəli işləri gördüyü vaxt onlara öncədən "Qaz təsərrüfatında texniki təhlükəsizlik Qaydaları"nın təhlükəsiz üsullarının öyrədilməsi və iş yerində təlimatın keçirilməsi təmin edilib.

Qəza hallarının aradan qaldırılmasında operativliyin təmin olunması, yeni qaz xətləri çəkilərkən və ya bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqət artırılıb, 7 ay ərzində qəza dispetçer xidmətinə edilən 216 müraciət qeydiyyata alınıb.

Məlumatda o da vurğulanır ki, sel, daşqın, uçqun və coğrafi relyefi çətin olan yerlərdən keçən daşıyıcı qaz kəmərlərinə baxış keçirilib, qaz xətlərinin yerinin dəyişdirilməsi zərurəti yaranan kəmərlərdə iş aparılıb.

Qaz təsərrüfatında çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində 1 nəfər Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursuna cəlb olunub.

**✍ Muxtar MƏMMƏDOV**

## Ailə təsərrüfatçılarının iştirakı ilə seminar-müşavirə keçirilib

*Şahbuz rayonunun Kolani Kənd Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq seminar-müşavirə keçirilib.*



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə İcra Hakimiyyətinin əməkdaşı Arzu Əhmədov açıb. Bildirib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın təsdiq olunması şahbuzlu ailə təsərrüfatçılarına böyük stimul olub, bölgədə yeni belə təsərrüfatların formalaşmasına geniş imkanlar açıb.

Qeyd edilib ki, muxtar respublikada daxili bazarın yerli keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində xüsusi payı olan ailə təsərrüfatlarının inkişafı istiqamətində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilir, belə təsərrüfatların yaradılmasına, onların fəaliyyətlərinə hərtərəfli qayğı göstərilir. Yaradılan əlverişli şərait ailə təsərrüfatlarının sayının artması ilə yanaşı, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Şahbuz rayonunda da son illər çox sayda ailə təsərrüfatları yaradılıb. Mütəmadi olaraq keçirilən festivallarda həmin təsərrüfatların məhsulları yüksək səviyyədə nümayiş olunur və təqdirəlayiq qiymətini alır. Vurğulanıb ki, seminar-müşavirənin keçirilməsində məqsəd ailə təsərrüfatı quran insanlara hərtərəfli köməklik göstərmək, onları öz təsərrüfatlarını inkişaf etdirmək üçün düzgün istiqamətləndirməkdən ibarətdir.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Oqtay Məmmədov, İqtisadiyyat Nazirliyinin əməkdaşı İsa Novruzov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Əli Şərifov və AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Loğman Bayramov çıxış ediblər. Çıxışlarda muxtar respublikada əkinçiliklə məşğul olan ailə təsərrüfatlarının inkişaf etdirilməsində yaz və payız əkinlərinin əkin atlaslarına uyğun aparılmasının və növbəli əkin sisteminin tətbiqinin əhəmiyyəti, ailə təsərrüfatlarına məxsus torpaqlardan səmərəli istifadə olunması yolları, ailə təsərrüfatlarının inkişaf etdirilərək kiçik sahibkarlıq subyektlərinə çevrilməsi məqsədilə maarifləndirici tədbirlərin genişləndirilməsi və digər məsələlərlə bağlı geniş məlumat verilib.

Sonra suallar cavablandırılıb, ailə təsərrüfatçılarına maarifləndirici bukletlər paylanılıb.

**✍ Nail ƏSGƏROV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xalqımızın tarixi-mədəni irsinin toplanılması, tədqiqi və təbliğindəki əhəmiyyətini nəzərə alaraq Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında 2019-cu il 2 avqust tarixdə imzaladığı Sərəncam muzeylərimizə göstərilən dövlət qayğısından, muzey işçilərinə olan böyük hörmət və ehtiramdan xəbər verən mühüm dövlət sənədidir.*




## Naxçıvan Dövlət Tarix Muzeyi – 95

# Əsrə yaxın tarix və ya bir ekspedisiyanın izi ilə...

Qeyd etmək yerinə düşər ki, 25 ildən artıq Naxçıvan Dövlət Tarix Muzeyində muzey işi, muzey quruculuğu sahəsində müxtəlif vəzifələrdə çalışan biri kimi muzeyin əsl tərbiyə, maarifçilik məktəbi olduğunu daim hiss etmişəm. Muzeyin fəaliyyətini araşdırarkən çoxlu dəyərli faktlara və maraqlı məlumatlara rast gəlmiş, bu tarixi mənbələrdən 30-a yaxın elmi-tədqiqat məqaləsinin yazılması zamanı bəhrələnmişəm.

Araşdırmalardan məlum olur ki, 1924-cü ildən başlayaraq tariximizin öyrənilməsi və təbliğində mühüm rol oynayan Naxçıvan Dövlət Tarix Muzeyinin uğurlu fəaliyyəti 1969-cu ildən sonrakı dövrə təsadüf edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra muzeylərin inkişafı və onların nüfuzunun artırılması istiqamətində tədbirlər həyata keçirilir. Nəticədə, Azərbaycan muzeyləri kimi, Naxçıvan Dövlət Tarix Muzeyi də nəinki mədəni-xidmət ocağı, həm də elmi-tədqiqat bazası kimi fəaliyyət göstərməyə başlayır, muzeyin digər elmi-tədqiqat müəssisələri ilə əlaqələri genişləndirilir. Həmin dövrdən etibarən muzeyin fəaliyyətində bir çox yaddaqalan hadisələr və əlamətdar günlər baş verir. Belə ki, Azərbaycan SSR Elmlər Akademiyası yaradıldıqdan sonra onun tərkibinə daxil edilən bu mədəniyyət müəssisəsi elmi-kütləvi, elmi-nəzəri konfransların keçirildiyi mərkəzə çevrilir. İlk dəfə olaraq 1969-cu ilin oktyabr ayında Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən tariximizin elmi əsaslarla yenidən öyrənilməsi və tədqiq edilməsi ilə bağlı Naxçıvana elmi ekspedisiya təşkil olunur və Naxçıvan Dövlət Tarix Muzeyində ekspedisiyanın ilk elmi-nəzəri konfransı keçirilir. Həmin konfransda diyarımızın tarixi ilə bağlı maraqlı elmi məruzələr dinlənilir və müzakirələr aparılır.

Məlumdur ki, bəşər tarixinə böyük töhfələr bəxş edən qədim Naxçıvanın tarixi uzun illər yad ölkələrdən, xüsusilə çar Rusiyası tərəfindən göndərilən müxtəlif əqidəli insanların səthi və yanlış məlumatları əsasında öyrənilməyə çalışılıb. Onlar real faktları, tarixi həqiqətləri bir kənara qoyaraq özlərinə sərf olunan şəkildə məlumatlar verir, əldə etdikləri maddi sübutları öz ölkələrinə daşıyıb aparırdılar. Ötən əsrin əvvəllərinə qədər çar üsuli-idarəsinin, sonralar isə Sovet hökumətinin yürütdüyü ideoloji siyasətin nəticəsi idi ki, yerli mütəxəssislərin yetişməsinə imkan verilməyib, nəticədə, Naxçıvanın tarixinin öyrənilməsinə, tədqiq edilməsinə daha çox yad qüvvələr müdaxilə ediblər.

XX əsrin 20-30-cu illərindən etibarən Sovet hakimiyyətinin möhkəmləndirilməsi məqsədilə siyasi təbliğat aparılır, sosialist ideologiyası tüğyan edirdi. Buna baxmayaraq, 60-cı illərin sonunda Azərbaycanın ictimai-siyasi həyatında mühüm dəyişikliklər baş verdi. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana siyasi rəhbər seçilməsi ilə Vətən tarixində yeni inkişaf dövrünün əsası qoyuldu. Nəticədə, qədim tarixi və mədəni irsimizin yenidən öyrənilməsi və tədqiqi sahəsinə də yaşıl işıq yandırıldı. Elmi potensialın inkişaf etdirilməsi, xüsusilə yerli mütəxəssislərin hazırlanması və onların elmi-tədqiqat işlərinə cəlb olunmaları üçün şəraitin yaradılması tariximizin köklü şəkildə araşdırılmasına və yeni tarixi faktların üzə çıxarılmasına zəmin yaratdı.

Həmin dövrdə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən Naxçıvan tarixinin yenidən araşdırılması məqsədilə 20 gün müddətinə Naxçıvana elmi ekspedisiya təşkil olunur. Əsas məqsəd isə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 50 illik və Naxçıvanın muxtariyyətinin 45 illik yubileyləri ilə əlaqədar keçiriləcək dövlət tədbirlərinə qədim diyarın tarixi haqqında elmi məruzələr təqdim etməkdən ibarət idi. Tanınmış tədqiqatçı-alim Osman Həbibullayevin rəhbərliyi ilə akademiyanın elmi əməkdaşlarından Məhəmməd Nəsirli, Rəbiyyə Qasımova və ekspedisiyanın digər üzvləri 1969-cu ilin oktyabrında Naxçıvana ezam olunurlar. Həmin elmi ekspedisiya Naxçıvanın tarixinin yenidən tədqiqində yerli kadrların da imkanlarından geniş istifadə edir. Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan Filialının direktoru, tarix elmləri namizədi Əli Əliyev, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Əbülqasım Sultanov, həmçinin həvəskar tədqiqatçılardan muzeyin elmi katibi Məmməd Məmmədov, baş elmi işçi Kamal Qasımov və başqaları ekspedisiya işlərinə cəlb olunaraq Naxçıvan ərazisində, o cümlədən Şahbuz rayonunda birgə tədqiqat işləri aparılır.

1969-cu ilin noyabrında Naxçıvan Dövlət Tarix Muzeyində Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu elmi-tədqiqat işlərinin yekunu olaraq elmi-nəzəri konfrans keçirir. Konfransda Naxçıvanın qədim tarixinin öyrənilməsinin aktual problemləri, Azərbaycanda antropologiya elminin inkişaf məsələləri, muxtar respublikanın etnoqrafiya tarixinin və sovet dövrünün tədqiqi məsələləri geniş müzakirə edilir.

Məruzələrin icmallarından məlum olur ki, elmi ekspedisiyanın rəhbəri O.Həbibullayev Naxçıvanın tarixi ilə bağlı maraqlı faktlara söykənərək bildirib ki, şəhərlərin yaranması tarixini yazılı məlumatlarla dəqiqləşdirmək mümkün deyildir. Naxçıvanın qədimliyini sübuta yetirmək üçün şəhərin maddi mədəniyyət qalıqları ilə zəngin olan abidələrini qoruyub saxlamaq və onların ətrafında geniş arxeoloji qazıntılar aparmaq lazımdır. Ekspedisiya rəhbəri qeyd edib ki, XIX əsrin 90-cı illərində Naxçıvan ərazisində təsadüfən aşkara çıxarılmış qədim maddi mədəniyyət nümunələri sonralar Naxçıvanın tarixinin daha dərindən öyrənilməsinə maraq doğurub. 1926-cı ildə sovet alimlərindən İ.İ.Meşşaninov, A.A.Miller, 1934-cü ildə Azərbaycan arxeoloq-etnoqrafı Ə.Ələkbərov, 1950-1964-cü illərdə akademiyanın Tarix İnstitutunun əməkdaşları qədim diyarın ərazisində tədqiqat işləri aparıb, eramızdan əvvəl ikinci minilliyin birinci yarısında Naxçıvan şəhəri ərazisində yüksək mədəniyyətin təşəkkül tapdığı sübut edilib. Ekspedisiya rəhbəri onu da bildirib ki, 1968-ci ildə Naxçıvan şəhərinin şimal hissəsində torpaq işləri aparılarkən 2 metr dərinlikdən çıxarılmış arxeoloji materiallar böyük əhəmiyyətə malik olmaqla bərabər, tapılmış 59 ədəd rəngli boyalı qab, tunc bəzək əşyaları, muncuqlar Naxçıvan mədəniyyətinin eramızdan əvvəlki XVII-XV əsrlərə aid olduğunu göstərir.

Ekspedisiya üzvü, tədqiqatçı-alim Məmməd Nəsirlinin məruzəsində bəzi Qərb alimlərinin Qafqaz ərazisində ilk insanların – Paleolit dövrü insanlarının mövcud olmamaları fikirlərinə aydınlıq gətirərək sübut edib ki, bəşər övladının ilk yaşayış məskəni kimi Naxçıvan bütün tarixi dövrlərdən, o cümlədən Qədim Daş dövründən üzübəri ardıcıl olaraq insanların yaşadığı yurd yeri kimi tanınıb.

Naxçıvan Dövlət Tarix Muzeyində keçirilmiş elmi-nəzəri konfransda ekspedisiya üzvü, bioloq-alim R.Qasımova bildirib ki, sovet antropologiyası elmi ən qədim dövrlərdə yaşamış insanla müasir insanın kəllə sümüklərində baş verən bioloji dəyişiklikləri öyrənib. Məlum olub ki, Qafqazda dörd əsas antropoloji qrup mövcuddur. Naxçıvan kaspi antropoloji tiplərin ən çox müşahidə edildiyi ərazilərdən biridir. Ona görə də buranın şəhər mədəniyyətinin dərindən öyrənilməsi tarix elmi üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvanlı tarixçi-alim Əli Əliyev həmin konfransda Naxçıvan tarixinin çox mühüm məqamlarına toxunub, kiçik əraziyə malik, lakin böyük tarixi hadisələrə şahidlik edən Naxçıvanın muxtariyyət statusuna sahib olmasını böyük tarixi hadisələrin nəticəsi kimi qiymətləndirib. O qeyd edib ki, 1917-ci ildə çar Rusiyasının devrilməsindən istifadə edən Naxçıvanın demokratik qüvvələri – Mirzəlibəy Bəktaşi, Hacı Mirbağır Mirheydərzadə, Məmməd Rəhimov, Məşədi Əhməd Əzimov və başqaları əhalini demokratik hərəkata qaldırıb, imperialist təcavüzkarlarına və daşnaklara qarşı 1918-ci ildə ciddi müqavimət göstəriblər. Ölkəyə yeridilən ingilis-amerikan hərbi qüvvələri Naxçıvan ölkəsinin "bitərəf zona" adı altında müstəmləkələşdirilməsinə cəhd göstərsələr də, həm onlara, həm də erməni daşnaklarına qarşı Naxçıvanda, Ordubadda özünümüdafiə hərəkatı başlanıb, silahlı müdafiə dəstələri təşkil edilib. 1919-1920-ci illər hərəkatında sıravi əhalinin, o cümlədən Hüseyn və Rəcəbalı Salman oğlanlarının, Heydərqulu Həsənovun, Həsən Şahverdioğlunun, Qasım Hüseynovun, Ələkbər Sadıqovun, İbrahim Fərzəliyevin, Yetimqulu Əkbərin,Yusif Seyidovun, Yusif Salayevin, Həsən Əliyevin, Fərəməz Mahmudbəyovun və başqalarının böyük xidmətləri olub. "Qırmızı tabor" və "Naxçıvan polku" Şahtaxtı, Xok, Oğlanqala məntəqələrində yerləşən daşnak qoşunlarının məhv edilməsində xüsusi hünər göstəriblər.

1969-cu ilin oktyabr ayında Naxçıvan Dövlət Tarix Muzeyində keçirilən konfransda iştirak edən muzeyin əməkdaşlarından Kamal Qasımov və Məmməd Məmmədov öz çıxışlarında Şahbuz rayonuna təşkil edilmiş elmi ekspedisiya işlərindən danışıb, rayonun kəndlərinin tarixini, mədəniyyətini, iqtisadi və məişət həyatını, həmçinin qədim, orta və yeni dövrə aid olan təpələrin, abidələrin, qədim yaşayış məskənlərinin yerini öyrənmək, gələcəkdə tədqiq etməkdən ibarət olduğunu bildiriblər. Qeyd olunub ki, tədqiqatlar Kükü kəndində əhalinin əsas məşğuliyyətinin maldarlıq olduğunu müəyyən edib.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Ə.Sultanov Azərbaycanda Sovet hakimiyyətinin 50, Naxçıvan muxtariyyətinin isə 45 illiyi ərəfəsində Naxçıvana təşkil edilən elmi ekspedisiyanın əhəmiyyətindən danışıb, ekspedisiya müddətində qədim insanların məişətini, təsərrüfatını, peşə mənsubiyyətlərini əks etdirən çoxlu maddi mədəniyyət nümunələri əldə etdiyini bildirib. Bu mənbələrin həm də muzey tamaşaçılarının xalqımızın qədim mədəniyyət xəzinəsinə nüfuz etmələrini asanlaşdıran ən qiymətli sərvət olduğunu qeyd edib.



Göründüyü kimi, diyarşünaslıq tariximizin öyrənilməsində, əhəmiyyətli arxeoloji və etnoqrafik tədqiqatların aparılmasında Naxçıvan Dövlət Tarix Muzeyi elmi-tədqiqat müəssisəsi kimi də mühüm rol oynayıb. Milli tariximizin təbliği və nümayişi zəminində Azərbaycanda muzey işinin yenidən qurulması, geniş muzey şəbəkəsinin yaradılması istiqamətində görkəmli dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi tədbirlərin davamı olaraq ölkə Prezidentinin bu sahənin inkişafı ilə bağlı imzaladığı qərar və sərəncamlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gördüyü ardıcıl işlər nəticəsində qədim diyarımızdakı muzeylər nəinki muxtar respublika səviyyəli tədbirlərin, hətta 1996-cı ildən bu günə qədər ayrı-ayrı dövlət başçılarının, səfirlərin, Naxçıvanda keçirilən beynəlxalq simpozium, konfrans və seminar iştirakçılarının, çoxsaylı turistlərin və beynəlxalq idman yarışı nümayəndələrinin maraqla ziyarət etdikləri məkana çevrilib. Muzeylərimizin nüfuzunun artması, muzey sərvətlərinin araşdırılması, tədqiqi əsasında xarici dillərdə müxtəlif elmi kitabların nəşr edilərək yayımlanması dünya xalqlarının tariximizlə yaxından tanış olmalarına şərait yaradıb.

*95 illik muxtariyyətimiz dövründə tariximizin öyrənilməsi, təbliği və tanıdılması istiqamətində bütün muzeylərimizlə bərabər, muxtariyyət yaşıdı Naxçıvan Dövlət Tarix Muzeyinin də xüsusi rolu olub. Həmin mədəniyyət müəssisəsinin 95 illik yubileyinin Ali Məclis Sədrinin tarixi Sərəncamı ilə dövlət səviyyəsində qeyd olunması diyarşünaslıq və muzeyşünaslıq tarixinin, bütövlükdə isə milli-mədəni irsimizin tədqiqi və təbliğinə öz layiqli töhfəsini verəcək.*

**Nəzakət ƏSƏDOVA**
*"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi*

# Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı növbəti tədbir keçirilib

*Ötən il dekabrın 27-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması müxtəlif ailə təsərrüfatlarının yaradılması üçün yeni imkanlar açıb.*

Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılmasına köməklik göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublika rayonları üzrə, ümumilikdə, 22 aztəminatlı ailə müəyyənləşdirilib. 17 nəfərə yanında balası olan iribuynuzlu, 2 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu heyvan, 2 nəfərə yerşumlayan mini aqreqat, 1 nəfərə isə meyvə şirələri və turşuların hazırlanması üçün ləvazimatlar verilib.



Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Qeyd olunub ki, özünüməşğulluğa cəlb edilən ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub, bu da həmin ailələrin sosial rifah halının yaxşılaşmasına müsbət təsir edib.

Daha sonra aztəminatlı ailə təmsilçilərinə verilən aktivlərlə bağlı sənədlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

İmadəddin Nəsimi – 650

# Nəsimi yaradıcılığının ideya-bədii xüsusiyyətləri

*Mütəfəkkir ədibimiz İmadəddin Nəsimi qədim və zəngin tarixə malik Azərbaycan ədəbiyyatının ən məşhur nümayəndələrindən biridir. Onun yaradıcılığı mövzu-ideya dolğunluğu, bədii mükəmməlliyi ilə səciyyələnir. Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd olunması haqqında" 2018-ci il 15 noyabr tarixli Sərəncamında deyildiyi kimi: **"Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır".** Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi də dahi sənətkarın sənətinə verilən böyük qiymətin ifadəsidir.*



İmadəddin Nəsiminin dərin humanizm ifadə edən zəngin yaradıcılığında hürufilik təlimi, onun kamil insan konsepsiyası mühüm yer tutur. Fəzlullah Nəiminin banisi olduğu hürufilik təriqətinə gənclik illərindən qoşulub onun mahiyyət və prinsiplərinə dərindən yiyələnən Nəsimi qısa müddətdə bu hərəkatın aparıcı simalarından birinə çevrilmişdi. İnsanın haqqa çatması vasitəsi kimi ilahi eşq yolunu simvollaşdıran sufilərdən fərqli olaraq hürufilər zəkaya, elmə daha çox üstünlük verir, kamil insan idrakının qüdrətini önə çəkirdilər. Hürufilər bu fikirdə idilər ki, bəşəriyyətin səadəti, xoşbəxt cəmiyyət quruculuğu insanın mənəvi kamilliyi ilə bilavasitə əlaqədardır. Yaranmışların ən alisi, şərəflisi sayılan insan özünü dərk etməli, çirkin hisslərdən, nəfsdən, bəd duyğulardan uzaq olmalı, haqq yolunu seçməli, yüksək mənəvi dəyərlərə yiyələnməli, müdrikliyə çatmalıdır. Cəmiyyətdə kamil insanlar nə qədər çox olarsa, bu, həqiqətin, azadlığın, ədalətin təntənəsinə rəvac verər. Bütün bunları ümumiləşdirən Nəsimi yazırdı:

*Ey Nəsimi, sən həqqi bil, həqqə iqrar eylə kim,*
*Çünki insanü bəşərsən, həq deyən insan mənəm!*

Nəsiminin şeirlərində böyük vəcdlə tərənnüm edilən insan da məhz özünü anlayan, yaranmışların ən qiymətlisi olan ali şəxsiyyətdir. Şair dünyanı sədəfə, kamil insanı isə onun içərisindəki dürr danəsinə, inciyə bənzədir, arifləri ən böyük məhəbbətə, alqışa layiq sayaraq yazırdı:

*Mərhəba, insani-kamil, canımın cananəsi,*
*Aləmin cismi sədəfdir, sənmisən dürdanəsi?*

Şairin haqlı qənaətinə görə, arifliyə gedən yol insanın özünü dərk etməsindən başlayır. Özünü anlamayan cahil adamlar heç bir ali məqsədə çata bilməzlər:

*Kim əzəl tanımadı kəndi vücudu şəhrini,*
*Ol gədahimmət nə yoldan vara sultan istəyə?*

Nəsimi şeirlərində vurğulayırdı ki, insanı mənəvi kamilliyə çatdıran haqq yoludur, ona görə də əsl sadiq aşiqlərin ən böyük sevgisi də bu haqqa bəslənilən hüdudsuz eşqdir. "İnsan bu hüsni-lütf ilə gövhər degilmidir?" – deyən şair insanı ali varlığın bir zərrəsi sayır, onun qüdrət və əzəmətinə böyük inam və ehtiram bəsləyirdi. Şairin fikrincə, kamil insan elə bir mənəvi zənginliyə malikdir ki, onda hər iki cahan – maddi və mənəvi aləm sığışa bilər, belə insan elə ilahi dəyərə malikdir, məkansız gövhərdir:

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam.*
*Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün,*
*Kəs sözünüvü əbsəm ol, şərhi-bəyana sığmazam.*

Arif insanların könlünü "ərşi-həqq" sayan İmadəddin Nəsimi şeirlərində nəzərə çatdırırdı ki, mənəvi cəhətdən naqis olanlar bəlalara, nöqsanlara tuş gələrlər, ona görə də hər bir şəxs idrakın gücü ilə kamilliyə qovuşmağa can atmalıdır:

*Naqis vücuda çün kim, nöqsan gəlir həmişə,*
*Cəhd eylə, kamil ol kim, gəlməz kəmalə nöqsan.*

Nəsimi şəxsiyyət azadlığına xüsusi önəm verir, obrazlı şəkildə "müqəddəs bülbül" adlandırdığı insanın qəflətdə qalıb qəfəsə giriftar olmasını məqbul saymır, onu buxovlardan çıxmağa, azadlığa, sərbəstlik məkanı kimi yeni gülüstana səsləyirdi:

*Ey bülbülü-qüdsi, nə giriftari-qəfəssən,*
*Sındır qəfəsi, tazə gülüstan tələb eylə.*

Humanist sənətkar olan Nəsimi insanlarda düzlüyü, doğruçuluğu vacib şərt sayırdı. Hər cür saxtakarlığın, süniliyin əleyhinə çıxan şair əyri dil sahiblərini, yəni könlündəki düşüncələri ilə danışığındakı sözləri bir-biri ilə uyğun gəlməyən riyakarları "dil bazarçısı" adlandıraraq tənqid edirdi:

*Dil bazarçısı yalandır, varmazam bazarına,*
*Gerçək olmaz əgri dil, inanmazam iqrarına.*
*Sadiq oldur, dilini könlü ilə bir eyləyə,*
*Əgri dildən nəsnə gəlməz, durmuşam inkarına.*

Şairin haqlı qənaətinə görə, hər bir insanın düşüncəsi, sözü və əməli bir-birini tamamlamalıdır və bunların hamısı məhz saf, ülvi mahiyyət daşımalıdır. Humanist sənətkar maddi nemətlər əsiri olan, mənəvi dəyərlərə yox, yalnız mal-mülkə yiyələnməyə can atanları da pisləyir, onları haqq yola çağırırdı:

*Dünyəvü mülkü malinəmeylü məhəbbət eyləmə,*
*Çün gedisərsən, ey məlik, axirətin sarayinə.*

Mütəfəkkir şair haqq yolunun yolçusu olanların nəfsdən uzaq olmasını da ayrıca nəzərə çatdırırdı. Bildirirdi ki, əsl aşiqliyin sirrini haqqı dərk edənlər anlayar. Nəfsinin əsiri olanlar, həqiqət məfkurəsinin məğzindən bixəbərlər bu feyzdən məhrumdurlar:

*Aşiqin əsrarını, haqqi bilən arif bilir,*
*Aşina halın nə bilsin nəfsini bilməz qərib.*

Nəsimi hürufilik təriqətinin müddəalarına uyğun olaraq ustad-şagird, mürşid-mürid münasibətlərinə də xüsusi əhəmiyyət verirdi. Şairin fəlsəfi-poetik qənaəti belədir ki, ariflik yolçuları məramlarına çatmaq, haqqı dərk etmək, mənəvi ucalığa, müdrikliyə qovuşmaq üçün kamil mürşidlərin, böyük ustadların, ağıllı rəhbərlərin ardınca getməli, naqislərdən uzaq durmalıdırlar. Əks halda, onlar xoş aqibətdən məhrumdurlar:

*Yoxdur nəsibi eşqi-həqiqətdən, ey könül,*
*Şol kimsənin ki, mürşidi naqisüqul ola.*




Şair onu da vurğulayırdı ki, mənəvi kamillik yolunu seçənlər, həqiqət naminə çalışanlar bu əzablı yolun sınaqlarına mətanətlə sinə gərməli, hər cür bəlaları dəf etməyi bacarmalıdır, əks təqdirdə, onlar məqsədlərinə çata bilməzlər:

*Çəkməyən eşqin bəlasın, görməyən hicrin qəmin,*
*Dərdi dərmansızdır anın, çarə yox dərmanına...*

Nəsiminin fikrincə, ariflik yolunun sədaqətli aşiqi böyük amal naminə lazım gələrsə, şəhidliyə də hazır olmalıdır. Onun ucalığı, mənəvi dəyəri də bununla bağlıdır:

*Aşiqi-sadiq oldurur həq yoluna şəhid ola,*
*Həq deyəni alır anun durmuş anun bəhayinə.*

Yaxud:

*Canını qurban edəndir yar için gerçək şəhid,*
*Səd həzaran rəhmət olsun ol şəhidin canına.*

Humanist sənətkarın təbliğ etdiyi nəcib ideyaların ifadəsi baxımından haqq yolunun sadiq yolçularına, əsl möminlərə xitabən yazdığı aşağıdakı parçalar da maraq doğurur. Şair həqiqi səadətə qovuşmaq istəyənlərə tövsiyə edirdi ki, incə davranışlı, xoş xasiyyətli, səxavətli olsunlar, ibadəti də unutmasınlar:

*Əya, mömin, gər istərsən səadət,*
*Özünə peşə qıl daim se adət.*
*Əvvəl təbi-lətifü xülqi-niku,*
*İkinci həm kərəm, cudü səxavət.*
*Üçüncü, olma hərgiz bivüzu sən,*
*Yeri, həq buyruğun tut, qıl ibadət.*

Nəsiminin şeirlərində gözəllik anlayışı da onun humanizm konsepsiyasının üzvi tərkib hissəsi kimi diqqəti çəkir. Əsl gözəlliyi bilavasitə mənəvi ləyaqətlə əlaqədə qiymətləndirən sənətkar burada da bir ali təzahür görürdü. "Kəbə üzündür, ey sənəm, üzünədir sücudumuz", – deyən şair kamil insanın simasında haqq nurunun varlığını iddia etməklə müəyyən idealizə və simvolika vasitəsilə mahiyyətcə yenə də yüksək insani dəyərlərin tərənnümçüsü kimi tanınırdı. Hürufi ədibin fikrincə, kamil insanın sifətindəki haqq nurunu yalnız pak, saf nəzər sahibləri görə bilərlər. Beləcə, şair gözəlliyin dərkini də bilavasitə kamillik konsepsiyası kontekstində mənalandırırdı:

*Hüsnü cəmalə baxmağa ari səfa nəzər gərək,*
*Düşməsin arisiz nəzər ayinənin səfasinə.*

Bir çox şeirində məhəbbəti, gözəlliyi hürufilik təliminin mahiyyət və prinsiplərinə uyğun şəkildə, simvolik örtükdə diqqətə çatdıran şairin dünyəvi sevgiyə həsr olunmuş əsərləri də az deyil. Maraqdoğuran cəhət həm də odur ki, İmadəddin Nəsiminin dünyəvi məzmunlu şeirlərində vəsf etdiyi sevgili də məhz doğma xalqın övladıdır, Azərbaycan-türk gözəlidir. Şairin aşağıdakı misralarda könül evini talan edən alagözlü türk gözəlindən söz açması da bu baxımdan təsadüfi deyil:

*Şol alı çox ala gözün könlüm evin yağmaladı,*
*Yağmaçı türkün ədəti hər qandasa yağma imiş.*

Başqa bir şeirdə aşiqi qəmlərə salan gözəlin pəri övladı, türk qızı kimi obrazlı ifadə ilə təqdimi də diqqəti çəkir:

*Bu nə adətdir, ey türki-pərizad,*
*Qəmindən olmadım bir ləhzə azad.*

İmadəddin Nəsimi Azərbaycan ədəbi dilinin inkişafında da böyük xidmətlər göstərmiş, poetik üslubun təkmilləşməsinə, duyum və deyim tərzinin cilalanmasına mühüm töhfələr vermişdir. Sayru (xəstə), uçmaq (behişt), damu (cəhənnəm), qaranqu (qaranlıq), ayıtmaq (demək), irişmək (yetişmək, çatmaq), tanıq (şahid) və digər çoxsaylı qədim leksik vahidlərə Nəsiminin şeirlərində tez-tez rast gəlinməsi də şairin doğma dilimizin ulu yaddaşına bağlılığının əyani təzahürüdür. Qəzəl, rübai, tuyuq və sair janrlarda yazdığı şeirlərində onun işlətdiyi rəngarəng bədii təsvir və ifadə vasitələri də dolğunluğu, orijinallığı, semantikası, məntiqi baxımdan sistematikliyi ilə diqqəti çəkir, ana dilimizin poetik imkanlarının genişliyini nümayiş etdirir. Nəsimi müxtəlifməzmunlu şeirlərində bir sıra hallarda bədii deyimə konkretlik çaları qatmaqla həm də vətənimizin bəzi tarixi, coğrafi koloritini də misralarda poetikləşdirir. Məsələn, şair vəsf etdiyi gözəlin gül yanağının həsrəti ilə gözlərindən axan yaşları təşbeh əsasında poetikləşdirərkən onu məhz doğma yurddan axan Araz çayına oxşadır:

*Sənin gülgün yanağın həsrətindən,*
*Axar çeşmim yaşı həm çün Ərəsvar.*

Belə mükəmməl duyum və deyim tərzi şairin şeirlərində çox geniş yer tutur. Ümumiyyətlə, Nəsiminin hər bir əsəri həm mövzu-ideya, həm də sənətkarlıq baxımından dolğun və təsirlidir.

İmadəddin Nəsiminin yüksək humanist qayəli dolğun əsərləri hələ öz sağlığından başlayaraq dillər əzbəri olmuş, əsrlərboyu ədəbiyyatın inkişafına mühüm təsir göstərmiş, mütəfəkkir söz ustadının yaradıcılığı Azərbaycanda və bir sıra xarici ölkələrdə geniş şəkildə tədqiq olunmuş, onun haqqında dəyərli bədii əsərlər də yazılmışdır. Tanınmış alimlərimizdən S.Mümtazın, H.Araslının, M.Quluzadənin, C.Qəhrəmanovun və başqalarının elmi tədqiqatları, həmçinin Nəsimiyə həsr olunmuş çoxsaylı ədəbi nümunələr, o cümlədən çoxsaylı şairlərin şeirləri, eləcə də bir sıra irihəcmli bədii əsərlər – Ə.Salahzadənin "Od heykəli", Qabilin "Nəsimi", S.Tahirin "Karvan gedir", R.Rzanın "Son gecə", N.Xəzrinin "Mənim babam baxan dağlar", M.Yaqubun "Şirvan alverçisi və Nəsimi" kimi poemaları, İ.Hüseynovun "Məhşər", M.İsmayılın "İki od arasında" romanları, H.Mirələmovun "Son səfər" povesti, B.Vahabzadənin "Fəryad", F.Aşurovun "Nəsimi" pyesləri bu baxımdan xatırladıla bilər. Yeri gəlmişkən onu da qeyd etmək istərdik ki, İmadəddin Nəsimi haqqında ədəbiyyatımızda ilk dramatik əsər Naxçıvanda yazılmışdır. Bu, həmyerlimiz Əkbər Məftunun 1946-cı ildə qələmə aldığı ikipərdəli "Nəsimi" mənzum dramıdır.

Əsrlər öncə İmadəddin Nəsimi insanlara üz tutaraq onları xeyirxah işlər görməyə, xoş əməllərlə, yaxşı adla tanınmağa səsləyirdi:

*Bir eyü ad edin fani cahanda,*
*Ululardan cahanda qaldı bir ad.*

Böyük şairin özü də həqiqət, ədalət və mənəvi kamillik uğrunda mübarizələrdə keçən mənalı ömrü, dərin humanizmdən yoğurulmuş möhtəşəm yaradıcılığı ilə bəşər tarixində silinməz ad qoymuş, mənəviyyat mücəssəməsi kimi tanınmışdır. "Ey Nəsimi, cahanı tutdu sözün", – deyən şair yenilməz şəxsiyyəti, yüksək ideya-bədii dəyərə malik əsərləri ilə solmayan şöhrət və mənəvi ölümsüzlük qazanmışdır.

**Hüseyn HƏŞİMLİ**
*filologiya elmləri doktoru,*
*professor, Əməkdar elm xadimi*

---

*Oxunması zəruri olan kitablar gənclərin gözü ilə*

## Eynəli bəy Sultanovun "Məqalələr" kitabı




Naxçıvanın görkəmli şəxsiyyətləri haqqında söhbət açıldığı zaman Eynəli bəy Sultanovun xalqın problemləri və onların həlli üçün məqsədəuyğun addımları özündə əks etdirən məqalələr yazdığını, bu məqalələrdə dövrünün ictimai eyiblərini tənqid etdiyini, həmin dövrdə xalqdan eşitdiyi atalar sözləri və məsəllərə xüsusi yer verdiyini müəllimlərimdən öyrənmişdim. Onun "Məqalələr" kitabının "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilməsinə isə çox sevindim.

Kitabı oxuyarkən bir daha gördüm ki, Naxçıvanda teatrın, kitabxanaçılığın, mətbəə işinin və bir çox sahələrdəki yeniliklərin öncüllərindən olan Eynəli bəy Sultanov daim xalqımızın maariflənməsinə, ziyalı kimi yetişməsinə çalışmış, Azərbaycan ədəbiyyatı və tarixi üçün qiymətli əsərlər yazmışdır.

Kitabda 120-dən çox məqalə yer alıb. Oxuduğum məqalələrdə Eynəli bəy Sultanovun Azərbaycan xalqına olan böyük sevgisi duyulur. Eynəli bəyin daxilindəki Vətən sevgisi, onun xalqının hər bir nümayəndəsinin maariflənməsi istiqamətindəki daxili vətənpərvərlik yanğısı diqqətimi cəlb etdi.

Eynəli bəy Sultanovun bədii-publisistik irsi Azərbaycan ədəbiyyatının qiymətli örnəklərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2016-cı il 15 fevral tarixli Sərəncamına əsasən Eynəli bəy Sultanovun 150 illik yubileyinin qeyd edilməsi bu irsin gələcək nəsillərə çatdırılması yolunda atılan uğurlu addımlardandır və hamımızı sevindirir. Məncə, biz məktəblilər bu irsi öyrənməklə və onu qoruyub yaşatmaqla öz vətənpərvərlik borcumuzu yerinə yetirmiş olarıq.

**Nərmin NOVRUZOVA**
*Culfa rayon Boyəhməd kənd tam orta məktəbinin XI sinif şagirdi*

---

## Müharibə iştirakçıları tibbi müayinələrdən keçirilib



Muxtar respublikada Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslərin və şəhid ailələrinin, habelə 1941-1945-ci illər müharibəsi iştirakçılarının rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Bu tədbirlər muxtar respublikanın müxtəlif rayonlarında yaşayan müharibə veteranlarına peşəkar tibbi xidmətin təşkili ilə də davam etdirilir.

Kəngərli Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası və Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən müharibə iştirakçılarına baş çəkilib, onlar tibbi müayinələrdən keçiriliblər. Ehtiyacı olanlara müalicələr təyin edilib. Həmçinin həkimlər onlara tibbi məsləhətlər və dərman preparatları da veriblər.

**Xəbərlər şöbəsi**

# “Araz-Naxçıvan”ın Şərur rayonundakı təlim-məşq toplanışı davam edir

***Yeni mövsümə ciddi hazırlaşan “Araz-Naxçıvan” futbol komandası – “qırmızı-ağlar” baş məşqçi Əsgər Abdullayevin rəhbərliyi altında Şərur Olimpiya İdman Kompleksində təlim-məşq toplanışındadır. Artıq altı gündür, burada məskunlaşan komanda gündə iki dəfə meydana çıxır. Keçirilən təlim-məşq toplanışı həm də seleksiya xarakteri daşıyır. Belə ki, əsas heyətin futbolçuları ilə yanaşı, komandaya baxışa dəvət olunan oyunçular da məşqlərdə iştirak edirlər. Məşqləri yaxından izləmək, komandanın hazırkı durumu barədə oxucuları məlumatlandırmaq üçün Şərur rayonuna yollandıq.***



Şərur Olimpiya İdman Kompleksində yaradılan şərait hamıya məlumdur. Bu idman obyekti istənilən idman klubunu qəbul etməyə, onların təlim-məşq toplanışına ev sahibliyi etməyə hər zaman hazırdır. Elə bizi kompleksin önündə kompleksin direktoru Ramil Dadaşov qarşıladı. Söhbətimiz zamanı məlum oldu ki, “Araz-Naxçıvan” futbol komandasının burada təlim-məşq keçməsi üçün hər bir şərait yaradılıb. Komanda gündə iki dəfə kompleksin nəzdində olan stadionda məşq edir. Həmçinin futbolçular Üzgüçülük Mərkəzindən və trenajor zalından da istifadə edirlər. Gün ərzində komanda üzvlərinin öncədən müəyyənləşdirilmiş qidalanması həkim nəzarəti ilə həyata keçirilir.

Görülən işlər, aparılan yenidənqurma tədbirləri, formalaşan mükəmməl struktur göz qabağındadır. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən idmanın inkişafı üçün verilən müvafiq tapşırıqlardan sonra muxtar respublikada bu sahədə xeyli işlər görülür. Strukturu yeni formalaşan və öz dəst-xətti ilə seçilən Futbol Federasiyası da bu qayğıdan bəhrələnən qurumlardandır. Federasiyanın təşkilatçılığı ilə idman kompleksində yeni formalaşan hakimlər üçün təlim-məşq toplanışı da reallaşır. Belə ki, 6 hakimin iştirak etdiyi məşqlərdə, əsasən, müasir qaydalar müzakirə edilir, əyani şəkildə meydançada göstərilir. Gündə iki dəfə praktik olaraq məşq keçən ədalət təmsilçiləri günün digər saatlarında hakimliklə bağlı nəzəri dərslər də deyirlər. 10 günlük hakimlərin təlim-məşq toplanışında 10 hakim iştirak edəcək.

Budur, “Araz-Naxçıvan”ın axşam məşqinə start verilir. Əsgər Abdullayevlə söhbətə başlamazdan öncə ilk məşqi izləyirik. Məlum olur ki, komandanın üç aparıcı üzvü – Çingiz Qurbanov, Azər Cabbarov və Vüsal Əliyev zədəlidir. Ayxan Həsənov isə yüngül zədə üzündən fərdi məşq edir. Təbii ki, indi hamını daha çox maraqlandıran bir məqam var: Əsgər Abdullayevin məşq və oyun fəlsəfəsi. Hələ 5 il öncə “Araz-Naxçıvan” klubunda çalışan Abdullayevin xeyli ciddi təsir bağışladığı hamıya məlum idi. Əsgər müəllim futbolçular, məşqçi heyəti ilə davranışda da bu ciddiliyini qoruyur. Həmçinin təcrübəli məşqçinin futbolçuları ruhlandırmaq üçün işlətdiyi “Əladır” sözünü kompleksin hər bir tərəfində eşitmək mümkündür. Bununla yanaşı, o, müdafiəçilər, yarımmüdafiəçilər və hücumçularla da ayrı-ayrılıqda işləyir, onların iştirakı ilə kombinasiyalı hücumlar qurdurur. Daha çox diqqəti cəlb edən məqam isə Abdullayevin futbolçulara təkcə topla deyil, topsuz rəftarı da öyrətməyə çalışması idi. Xüsusilə oyunçuların sürət məşqlərində hərəkətlərini baş məşqçi diqqətlə izləyirdi. Sonda keçirilən ikitərəfli oyunu təlim-məşq toplanışında olan hakimlər briqadasının idarə etməsi də diqqətdən yayınmadı.

Məşqdən sonra futbolçular Üzgüçülük Mərkəzinə bərpa məşqi üçün yollandılar. Biz də fürsətdən istifadə edib Əsgər Abdullayevlə təlim-məşq toplanışı barədə danışdıq: “Artıq 6 gündür, buradayıq. Onu deyim ki, komandanın təlim-məşq toplanışı keçməsi üçün hər bir şərait yaradılıb. Ümumiyyətlə, kompleksdə yaradılan şərait nəinki futbol komandaları, həmçinin digər idman növlərində olan klublarla da məşq keçməsi üçün əlverişlidir. Daha çox məşqlərimiz topla olur.







Çalışırıq ki, futbolçular topu daha çox “hiss etsinlər”. Səhər məşqlərində futbolçuların fiziki göstəricilərinə üstünlük verilir. Axşamlar isə taktiki-texniki məşqlər keçirilir. Heyətimizdəki futbolçuların əksəriyyəti cavandır və onları düzgün karyera qurmaq üçün istiqamətləndirməliyik. Məşqlər zamanı futbolçuların istəkli olması baş məşqçi kimi məni də sevindirir. Ümumiyyətlə, hər zaman futbolçularla söhbət edərkən Naxçıvanın necə futbol ənənəsi olduğunu deyirəm. Bu diyar Azərbaycan futboluna tanınmış simalar bəxş edib. Gələcəkdə heyətimizdə olan futbolçuların ölkə birinciliklərində böyük uğurlar qazanacaqlarına əminəm”.

Əsgər Abdullayev deyir ki, futbolçulara, əsasən, qələbə, qalib olma psixologiyasını aşılamaq lazımdır. O qeyd edir ki, təlim-məşq zamanı hər bir futbolçu ilə ayrılıqda söhbət aparıram. Onun meydanda çatışmayan cəhətlərini, nə etmək lazım olduğunu deyirəm. Eyni zamanda onları məşqlərə psixoloji olaraq hazırlayıram. Bu zaman futbolçu özündə əlavə güc hiss edir. Məşqçi hər zaman bir psixoloq kimi oyunçunun arxasında dayanmalı, ona güvənməlidir. Deyərdim ki, məşqlərimiz çox ağır keçir. Buna baxmayaraq, futbolçular verilən hər tapşırığın öhdəsindən layiqincə gəlirlər.

Növbəti məşq günü, səhər saat 8-dir. Futbolçulara çətin tapşırıqların verilməsinə, baxmayaraq, onlar günü stadionda açırlar. Baş məşqçi qısa olaraq futbolçulara keçiriləcək məşqin planı barədə məlumat verir. Ardınca topla məşqlərə başlanılır. Məşqdə əsas hədəf rəqib komandanın hücumlarını dəf etmək və rəqibi əks-hücumda yaxalamaqdır.

Məşq zamanı Əsgər müəllimin tez-tez hücumları saxlayıb, futbolçulara düzgün mövqe seçməsini söyləməsi diqqətdən yayınmır. Səhər məşqi küncdən asmalar və qapılara zərbələrlə başa çatır.

Keçirilən məşqdən sonra futbolçuların da fikirlərini öyrənirik.

***Turqay İbrahimov:*** “Məşqlərimiz ağır keçir ki, bu da yeni mövsümə iddialı hazırlaşmağımızın göstəricisidir. Qarşıda bizi çətin oyunlar gözləyir. Həmçinin təlim-məşq toplanışından sonra yoldaşlıq görüşlərində qüvvəmizi sınayacağıq. Həmin oyunlarda qələbə qazanıb mövsümə yaxşı başlamaq istəyirik”.

***Nicat Əsgərov:*** “Komandamızın heyətində təcrübəli futbolçularla yanaşı, yeniyetmə oyunçular da vardır. Onların istəklə, böyük əzmkarlıqla məşqlərdə iştirak etməsi komandanın gücünə əlavə güc qatır. Baş məşqçimiz təcrübəli mütəxəssisdir. Bacardığımız qədər ondan nəsə öyrənməyə çalışırıq. Eyni zamanda burada bizim üçün hər bir şərait yaradılıb”.

***Elvin Əsədullayev:*** “Uzun müddətdir ki, “Araz-Naxçıvan”ın heyətində çıxış edirəm. Cari mövsümün məşqlərinə ara vermədən davam edirik. Əla heyətimiz var. Baş məşqçimizin tapşırıqlarını daim yerinə yetirməyə çalışırıq. Yeni mövsümdə iddialı bir komanda kimi meydana çıxacağımıza inanıram”.

Sonda baş məşqçi Əsgər Abdullayev komandanın gələcək planları barədə də məlumat verdi: “Yaxşı heyət formalaşdırmışıq. Zədəli futbolçularımız qarşıdakı həftə komandaya qoşulacaq və məşqlərimizə davam edəcəyik. Əsas hədəfimiz yerli futbolçuları yetişdirmək və onları heyətə cəlb etməkdir. Bunun üçün bizə hər bir şərait yaradılıb. Digər tərəfdən keçirəcəyimiz oyunlarda qələbə qazanmağa köklənmişik. Çünki bir komanda qələbəyə nə qədər köklənərsə, psixoloji tərəfdən hazır olarsa, mövsümün sonunda da bir o qədər uğur qazanılar. Şərur Olimpiya İdman Kompleksində bizim rahatlığımız, məşqləri vaxtında aparmağımız üçün geniş imkanlar vardır. Bu cür təlim-məşq bazasını idmançıların ixtiyarına verdiyinə görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk. Eyni zamanda futbolçuları dəstəkləyən Gənclər və İdman Nazirliyinə, Futbol Federasiyasına təşəkkürümü bildirirəm”.

✍ **Ceyhun MƏMMƏDOV**

---

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Papaqçılıq qədim el sənətidir

***Xalqımızın tarixi keçmişini, milli irsini əks etdirən mədəniyyət nümunələrindən biri də papaqçılıq sənətidir. Bu sənət xalqımızın məişəti və mədəniyyəti ilə sıx şəkildə bağlı olub, zamanın süzgəcindən keçərək böyük bir inkişaf yolu keçib. Əsas milli baş geyimlərindən olan papağa xalqımız hər zaman xüsusi ehtiramla yanaşıb. Papaq ta qədimdən cəsarət, ləyaqət, şərəf rəmzi hesab olunmaqla yanaşı, həm də hörmət simvolu sayılıb. Odur ki, papaqçılıq tarixboyu mühüm sənətkarlıq sahələrindən olub.***

Milli mədəniyyətimizin digər sahələri kimi, qədim papaqçılıq sənəti də bu gün muxtar respublikamızda qorunub yaşadılır. Ömrünü bu sənətə həsr etmiş insanlardan biri də İsmayıl Babayevdir. 30 ildən artıqdır ki, Naxçıvan şəhərində papaqçılıqla məşğul olan İsmayıl usta deyir ki, bu sənəti seçən insanda gərək həvəs və istək olsun. Bunlarsız keyfiyyətli iş də ortaya çıxmaz.

Sənətini ürəkdən sevən İsmayıl Babayev gördüyü işdən həm də zövq almağı bacarır. Onun tikdiyi papaqlar gözəlliyi və keyfiyyəti ilə seçilir. Usta hazır papaq nümunələri ilə yanaşı, sifarişçinin zövqünə, sənətinə uyğun papaqlar da tikir. Deyir ki, əvvəllər kişilər daha çox buxara, çapma, şiş, sarıq kimi papaq növlərinə üstünlük verirdilər. Bu gün isə, əsasən, kepkatipli papaqları daha çox sifariş edirlər. Təbii ki, günümüzün dəb və zövqünə uyğun olaraq bu növlərin bir çoxu istifadə edilmir. Bununla belə, yaşlılar arasında buxara papaq tikdirmək istəyənlər də az deyil.

İsmayıl usta bizə bu sənətin tarixi barədə də məlumat verir. Onun dediklərindən: “Tarixboyu ölkəmizdə papağın bir çox növlərindən istifadə edilib. Onların müxtəlif formaları və özünəməxsus adları olub. Məsələn, oğlan uşaqları üçün hazırlanan papaqlara “tərlik” deyirlər. Ancaq tərlik papaq qədər qalın olmur və açıq qırmızı rəngdə bir qat toxunan formaya malikdir. Bu papaq formasının Səfəvi hökmdarlarının “Qızılbaş” ordusundan qalması ehtimal edilir. Milli geyimlərimizin mühüm elementlərindən biri olan araqçının isə forması onun daşıyıcısının sosial vəziyyətinin göstəricisi sayılırdı. Xalqımız arasında ən geniş yayılan papaqlardan biri də motal papağı olub. Ondan, əsasən, yoxsul təbəqəyə mənsub insanlar və çobanlar istifadə edərdilər. Bəy zümrəsinin nümayəndələri və varlı təbəqə isə buxara papaq geyinirdi. Onları Buxaradan gətirilmiş dəridən konus şəklində və ya itiuclu formada hazırlayırdılar. Buxara papağa “şiş papaq” və ya “bəy papaqları” da deyilirdi”.

Papaqçı onu da qeyd etdi ki, papaqların hazırlanmasında müxtəlif növ materiallardan istifadə edilsə də, dəridən hazırlanan papaqlar daha çox üstünlük təşkil edir.

Papaqlar milli geyimlərimizdə dərin kök salıb. Bu mədəni irsi qoruyub saxlamaq, inkişaf etdirmək qarşımızda duran mühüm vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı isə belə xalq yaradıcılığı nümunələrinin yaşadılmasına geniş imkanlar açıb. Bu sərəncamdan irəli gələn vəzifələr muxtar respublikada uğurla yerinə yetirilir, hər il bu istiqamətdə geniş tədbirlər keçirilir. Milli-mədəni dəyərlərə yüksək qiymət verilməsinin ifadəsidir ki, 8 sentyabr 2018-ci il tarixdə Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Milli geyimlər” festivalı keçirilib. Festivalda milli baş geyimimizin müxtəlif papaqlar da nümayiş etdirilib və böyük maraqla qarşılanıb.

Qürurvericidir ki, bu gün doğma Naxçıvanımızda müxtəlif sənət sahələrinin qorunub yaşadılması və inkişafına göstərilən diqqət və qayğı davamlı xarakter alıb. Sənətkarlar üçün emalatxanaların yaradılması, onların sərgilərinin təşkil olunması bunun əyani göstəricisidir. Papaqçılıq



da bu sahədə önəmli yerə malikdir.

Bir məsələni də vurğulayaq ki, bu gün Naxçıvan şəhərində, rayon mərkəzlərində çalışan dərzilər həm də papaq tikməyə maraq göstərirlər. Hazırda müasir dövrün tələblərinə uyğun olaraq yeni papaq növləri tikilir. Onu da qeyd edək ki, min illərlə yaşı olan papaqlarımız bu gün də öz dəyərini saxlayır.

✍ **Gülcamal TAHİROVA**

---

### *İtmişdir*

Rəcəbov Ayaz Arif oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Hacısoy Həsənbəy İnqilab oğlunun adına olan 653 inventar nömrəli texniki pasport və MH-0009643 seriyalı çıxarış itdiyindən etibarsız sayılır.

---

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 559**